KAMAL ABDULLA

# Mənim Füzulim

Bakı - 2019

KAMAL ABDULLA

Azf 313885

# *Mənim Füzulim*

Azərbaycan milli kitabxanası

**Bakı**
**MÜTƏRCİM**
**2019**

**Bədii redaktor:**
*Ziyadxan Əliyev,*
*Əməkdar incəsənət xadimi*

**Redaktor:**
*Cavid Zeynallı*

**Kamal Abdulla. Mənim Füzulim.**
– Bakı: Mütərcim, 2019. – 120 səh.

Bu kitab Məhəmməd Füzulinin aləmlərin sirrini göstərən ayinəsində yeni ecazkar məqamların aşkarlanmasına işıq tutan esselərdən ibarətdir. Hər bir esse oxucunu Füzuli dünyasının başqa-başqa guşələrinə götürəcək, onu bu dünyanın sirlərindən hali edəcəkdir.

*Kitabda Səttar Bəhlulzadənin Füzuli əsərlərinə çəkdiyi qrafik rəsmlərdən istifadə edilib.*

ISBN: 978-9952-28-482-9

© Kamal Abdulla, 2019

## *Kitabın içindəkilər*

Mənim Füzulim ........................................ 4

Füzuli xatırlayır: "Deyildim mən sənə mail..." ........... 7

Füzuli xatırlayır:
"Tifl həm cövlan edər, amma ağacdan atı var…" .......... 29

Füzuli xatırlayır: "Ey Füzuli!..." .............................. 49

Füzuli xatırlayır: "Bir dərdli macəra imiş eşq…" ........ 69

Füzuli səsləyir: "Səbr eyləmə, eylə tərki - aləm... ........ 85

Füzuli inanır:
"Məndə Məcnundan füzun aşiqlik istedadı var..." .............. 103

# *Mənim Füzulim*

Oxucuya, həcmcə kiçik də olsa, kitab kimi təqdim edilən bu mətnin yaranışı necə oldu və bu yaranışın səbəbi nə idi?!

Uzun müddət idi ki, Cahangir Cahangirovun cazibədar "Füzuli" kantatası özünün ən müxtəlif yönlərindən mənim qulağımda səslənirdi. Mən ondan yaxa qurtara bilmirdim. Ən müxtəlif vaxtlarda, ən müxtəlif yerlərdə öz-özünə, heç nədən o mənim beynimdə, qəlbimdə "peyda olurdu". Mən bu musiqi ilə yaşayırdım, onunla nəfəs alırdım. Şövkət Ələkbərovanın ecazkar səsi əlimdən yapışıb məni Füzuli aləminin içinə qədər arxasınca gətirib gəlirdi.

Bir səbəb də əziz müəllimlərim oldu: unudulmaz Mir Calal və unudulmaz Məmməd Cəfər. Mir Calalın "Füzuli sənətkarlığı" və Məmməd Cəfərin "Füzuli düşünür" əsərləri, klassik ədəbi-elmi araşdırma nümunələri kimi, sən demə, mənim içimdə məndən xəbərsiz yaşayırlarmış. Çevrə bu şəkildə qapanır. Ona görə də bu kitab Sözün və Səsin bir-birinə doğru can atan əsrarəngiz hərəkətindən yarandı desəm, heç də səhv etmərəm.



Amma bununla da bitmədi. Son anda, yəni, kitab ərsəyə gələrkən dostlarımın tövsiyyəsi ilə Səttar Bəhlulzadə faktoru ortaya çıxdı. Onun "Leyli və Məcnun" mövzusunda çəkdiyi ölməz görüntülər qrafik sənətin nadir inciləri kimi bu kitabın indiki düzənini yaratdı, onu tamamladı.

"Nə üçün?" sualına sanki cavab verildi. Sadəcə, bir məsələ qaldı. Bu da şairə sonsuz məhəbbətimlə bağlı məsələdir. Füzuli məni həmişə ahənrüba kimi özünə cəlb edib. Füzulinin sözə münasibəti, sözü mum kimi beytin içində "əzib" yerləşdirmə bacarığı mənim təsəvvürlərimin hətta hüdudundan kənara çıxıb. Mən həmişə fərqində olmuşam ki, Azərbaycan ədəbiyyatı məhz Füzuli ilə XVI əsrə daxil olub, öz dilini yenidən yaradıb və qoruyub, dünya dəyərlərinə qiymət verib. Elə buna görə də "Füzuli olmasaydı nə olardı?" sualı məni həmişə qorxudub. Və bu qorxu tezcə də duman kimi uçub gedib. Mən anlamışam ki, mənim Füzulim olmaya bilməzdi. Necə ki, Xəzər olmaya bilməzdi, necə ki, Göy göl olmaya bilməzdi, Azərbaycan olmaya bilməzdi. O məni heç zaman tək buraxmazdı. Və mənim Füzulim uzaq əsrlərin isti qoynundan narahat, qəmli baxışlarını yenə də bu günə dikib. Və təkrar-təkrar deyir. Təkcə mənim üçün deyir: "Tədbiri – qəm etmək olmaz oldu. Gəldim, geri getmək olmaz oldu..."

*Kamal Abdulla*